**“Təsdiq edilmişdir”**

**Əmanətlərin Sığortalanması Fondunun**

**Himayəçilik Şurasının 02 oktyabr 2009-cu il tarixli (16 saylı protokol) qərarı ilə**

# Kompensasiyanın ödənilməsi üçün müraciət etmiş əmanətçilər və digər şəxslərin eyniləşdirilməsinə dair

# <u>TƏLİMAT</u>

**( 2 4 iyun 2013 - cü il tarixli dəyişikliklərlə)**

**Bakı – 2009**

## 1. Ümumi Müddəalar

**1.1.** "Kompensasiyanın ödənilməsi üçün müraciət etmiş əmanətçilər və digər şəxslərin eyniləşdirilməsinə dair" Təlimat (bundan sonra – Təlimat), Əmanətlərin Sığortalanması Fondunun (bundan sonra - Fond) "Kompensasiyaların ödənilməsi proseduruna dair" Qaydalarına və "İştirakçı bankların əmanətçilər qarşısında öhdəliklərinin uçotu" Qaydalarına uyğun olaraq hazırlanmışdır.

**1.2.** Təlimat kompensasiyanın ödənilməsi tələbi ilə və sonradan kompensasiya məbləğinin alınması üçün müraciət (bundan sonra – kompensasiyanın ödənilməsi üçün müraciət) edən əmanətçilər və digər şəxslərin eyniləşdirilməsi məqsədi ilə hazırlanmışdır. Yuxarıda göstərilən şəxslərin eyniləşdirilməsi dedikdə, reyestrdəki məlumatlara uyğun olaraq təqdim etdikləri sənədlər əsasında kompensasiya məbləğinin alınması üçün onların səlahiyyətinin yoxlanılması başa düşülür.

**1.3.** Təlimat kompensasiya ödənişi üçün müraciət etmiş əmanətçilərin və digər şəxslərin, o cümlədən: əmanətçilərin səlahiyyətli və qanuni nümayəndələrinin (valideynlər, övladlığa götürənlər, qəyyumlar, himayəçilər), əmanətçinin vərəsələri və vəsiyyət icraçılarının eyniləşdirilmə prosedurunu tənzimləmək məqsədi ilə hazırlanmışdır.

**1.4.** Kompensasiyanın ödənilməsi üçün müraciət etmiş əmanətçilərin və digər şəxslərin eyniləşdirilməsi Fondun və ya Agent bankın (kompensasiyaların ödənilməsi üçün ərizələrin qəbulu və kompensasiyaların ödənilməsi Agent bank tərəfindən həyata keçirildikdə) səlahiyyətli işçisi tərəfindən həyata keçirilir.

**1.5.** Kompensasiyanın ödənilməsi üçün müraciət etmiş şəxslər "İştirakçı banklarda əmanətçilər qarşısında öhdəliklərin uçotu" Qaydalarına 1 nömrəli əlavədə göstərilmiş şəxsiyyətini təsdiq edən sənədlərdən hər hansı birini təqdim etməlidirlər.

**1.6.** Şəxsiyyəti təsdiq edən sənədlər və digər təqdim olunmuş sənədlər etibarlı olmalıdır və surətləri qanunvericiliyə müvafiq qaydada notarial qaydada təsdiq olunmalıdır.

## 2. Əmanətçinin eyniləşdirilməsi

**2.1.** Əmanətçinin kompensasiya almaq üçün müraciət etmə hüququ aşağıdakı hallarda qəbul edilmiş sayılır:

a) əmanətçi tərəfindən təqdim edilmiş sənəddə əmanətçinin adı, soyadı, atasının adı (əgər qanundan və ya milli xüsusiyyətlərdən ayrı qayda irəli gəlmirsə), *doğum tarixi*; sənədin növü; şəxsiyyəti təsdiq edən sənədin rekvizitləri (seriyası, nömrəsi, verilmə tarixi, sənədi verən orqanın adı) reyestrdəki məlumatlarla uyğun gəldikdə.

b) əmanətçinin adı, soyadı, ata adı dəyişdirildikdə və bu əsasla şəxsiyyəti təsdiq edən sənəd yenisi ilə əvəz olunduqda, əmanətçi səlahiyyətli dövlət orqanı tərəfindən verilmiş adın, soyadın, ata adının dəyişdirilməsi ilə bağlı müvafiq sənədi *və ya sığorta hadisəsi baş vermiş bankın (bundan sonra - bank) müvəqqəti inzibatçısı və ya ləğvedicisi tərəfindən verilmiş arayışı* Fonda təqdim etməlidir.

c) əmanətçi tərəfindən təqdim edilən şəxsiyyəti təsdiq edən sənədin rekvizitləri ilə reyestrdə qeyd olunmuş sənədin rekvizitləri uyğun gəlmədikdə, əmanətçi şəxsiyyəti təsdiq edən sənədi dəyişdirən və ya əvəz edən səlahiyyətli dövlət orqanı tərəfindən verilmiş şəxsiyyəti təsdiq edən sənədin dəyişdirilməsi haqqında (dəyişdirilmiş və yeni verilmiş sənədin rekvizitləri qeyd olunmaqla) arayışı *və ya bankın müvəqqəti inzibatçısı və ya ləğvedicisi tərəfindən verilmiş arayışı və bankla müqavilə bağlanarkən təqdim edilən sənədin surətini* Fonda təqdim etməlidir.

d*) Əmanətçi kompensasiya almaq üçün müraciət etdiyi zaman başqa növdən olan şəxsiyyəti təsdiq edən sənəd təqdim etdiyi halda, bankın müvəqqəti inzibatçısı və ya ləğvedicisi tərəfindən verilən əmanətçinin eyniliyi barədə arayışı və bankla müqavilə bağlanarkən təqdim edilən sənədin surətini Fonda təqdim etməlidir.*

**2.2.** Öz qazancı, təqaüdü və ya digər gəlirləri barəsində müstəqil sərəncam vermək hüququ məhkəmə tərəfindən məhdudlaşdırılmış 14-18 yaşlar arası yetkinlik yaşına çatmamış şəxslər kompensasiyanın ödənilməsi üçün müraciət etdikdə, onlar Təlimatın 2.1-ci bəndində göstərilən sənədlərdən əlavə olaraq qanuni nümayəndələrinin (valideynlər, övladlığa götürənlər, himayədarlar) notarial qaydada təsdiq olunmuş yazılı razılıq ərizələrini də təqdim etməlidirlər.

**2.3.** Reyestrdə və təqdim olunan sənədlərdə adı göstərilməyən ər və ya arvad sığorta hadisəsi baş vermiş bankda yerləşdirilmiş əmanətin birgə mülkiyyətdə olması ilə bağlı qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsini təqdim etməklə öz payına uyğun hissədə kompensasiya tələb edə bilər. ~~Bu zaman ümumi mülkiyyətin digər iştirakçısına Fond tərəfindən məlumat verilməlidir.~~

## 3. Əmanətçilərin qanuni nümayəndələrinin (valideynlər, övladlığa götürənlər, qəyyumlar, himayəçilər), əmanətçilərin etibarnamə üzrə nümayəndələrinin, əmanətçinin vərəsəsinin (vərəsələrinin), vəsiyyət icraçılarının kompensasiyanın ödənilməsi üçün müraciət etmə hüququnu təsdiq edən sənədlər

**3.1.** Azyaşlılar (14 yaşına qədər olan şəxslər) və yetkinlik yaşına çatmamış şəxslərin (14-18 yaşlar arası) qanuni nümayəndələrinə kompensasiyanın ödənilməsi üçün müraciət etmək hüququ verən sənədlər aşağıdakılardır:

- valideynlər üçün – azyaşlının və ya yetkinlik yaşına çatmayan şəxsin doğum haqqında şəhadətnaməsi.

- övladlığa götürənlər üçün – doğum haqqında şəhadətnamə və övladlığa götürmə haqqında şəhadətnamə.

- qəyyumlar və himayəçilər üçün – azyaşlının və yetkinlik yaşına çatmayan şəxsin doğum haqqında şəhadətnaməsi; azyaşlıya qəyyumun, yetkinlik yaşına çatmayan şəxslərə isə himayəçinin təyin olunması barədə yaşayış yeri üzrə qəyyumluq və himayəçilik orqanının qərarı.

16-18 yaşlar arası yetkinlik yaşına çatmayan şəxslərin qanuni nümayəndələri yuxarıda göstərilən sənədlərdən əlavə yetkinlik yaşına çatmayan şəxsin şəxsiyyətini təsdiq edən sənədi də təqdim etməlidirlər.

**3.2.** Fəaliyyət qabiliyyəti olmayan (məhdud fəaliyyət qabiliyyətli) əmanətçilərin qanuni nümayəndələrinə kompensasiyanın ödənilməsi üçün müraciət etmək hüququ verən sənədlər aşağıdakılardır:

- fəaliyyət qabiliyyəti olmayan (məhdud fəaliyyət qabiliyyətli) əmanətçinin şəxsiyyətini təsdiq edən sənəd;

- fəaliyyət qabiliyyəti olmayan əmanətçiyə qəyyumun, məhdud fəaliyyət qabiliyyətli əmanətçiyə himayəçinin təyin olunması barədə yaşayış yeri üzrə qəyyumluq və himayəçilik orqanının qərarı.

**3.3.** Əmanətçinin nümayəndəsinin kompensasiyanın ödənilməsi üçün müraciət etmə səlahiyyəti notarial qaydada təsdiq olunmuş etibarnamə ilə müəyyən olunur.

Azərbaycan Respublikasının hüdudlarından kənarda verilmiş etibarnamələrə apostil qoyulur və ya Azərbaycan Respublikasının diplomatik nümayəndəliyində və ya konsulluqlarında leqallaşdırılmalıdır. Xarici dildə olan etibarnamə və apostil Azərbaycan dilinə tərcümə edilməli və notarial qaydada təsdiq olunmalıdır.

**3.4.** Əmanətçinin vərəsəsinin (vərəsələrinin) kompensasiyanın ödənilməsi üçün müraciət etmə hüququ vərəsəlik hüququ haqqında şəhadətnamə ilə müəyyən olunur.

Vərəsənin kompensasiyanın ödənilməsi üçün müraciət etmə hüququ məhkəmənin qanuni qüvvəyə minmiş qətnaməsinə əsasən müəyyən oluna bilər.

**3.5.** Vəsiyyət icraçısının kompensasiyanın ödənilməsi üçün müraciət etmə hüququ notarius tərəfindən verilmiş şəhadətnamə ilə təsdiq olunur.

**3.6.** Təlimatın 3.1-3.3-cü bəndlərində göstərilən şəxslərin kompensasiyanın ödənilməsi üçün müraciəti zamanı reyestrdəki məlumatların təqdim edilən sənədlərdəki məlumatlarla müqayisəsi Təlimatın 2.1-ci bəndinə uyğun olaraq həyata keçirilir.

*Təlimatın 3.4, 3.5-ci bəndlərində göstərilən şəxslərin kompensasiya üçün müraciəti zamanı təqdim edilən sənədlərdə əmanətçinin adı, soyadı, ata adı, şəxsiyyəti təsdiq edən sənədin rekvizitləri və reyestrdə kompensasiyanın ödənilməsi üçün əsas olan hesab nömrələri (yaxud əmanətçinin bankda olan bütün əmanətinə hüququn tanınması barədə qeyd) reyestr məlumatları ilə tam uyğun gəldiyi halda qəbul edilmiş sayılır.*~~Təlimatın 3.4, 3.5-ci bəndlərində göstərilən şəxslərin kompensasiya üçün müraciəti zamanı təqdim etdiyi sənədlərdə əmanətçinin şəxsiyyətini təsdiq edən sənədin rekvizitləri olmadığı hallarda həmin şəxsin kompensasiya üçün müraciət hüququ yalnız əmanətçi və bankın öhdəliklərinə dair reyestrdəki məlumatların müraciət edən şəxsin vərəsəlik hüququnu təsdiq edən sənəddəki məlumatlarla tam uyğun gəldiyi halda qəbuledilmiş hesab olunur.~~

## 4. Mübahisəli hallarda eyniləşdirilmənin aparılması

**4.1.** Reyestrdə əmanətçi haqqında məlumatların yazılışında uyğunsuzluqlar (səhvlər) aşkar edildikdə kompensasiyanın alınması hüququnun təsdiqi aşağıdakı qaydada həyata keçirilir.

**4.1.1.**

*Təlimatın 2.1-ci bəndində göstərilmiş əmanətçi haqqında məlumatlar yoxlanılan göstəricilərin əhəmiyyət dərəcəsinə görə 2 qrupa bölünür:*

*<u>I qrup:</u>*

*adı;*

*soyadı;*

*atasının adı;*

*şəxsiyyəti təsdiq edən sənədin növü;*

*şəxsiyyəti təsdiq edən sənədin PİN kodu (sənədin növü şəxsiyyət vəsiqəsi olduqda);*

*şəxsiyyəti təsdiq edən sənədin nömrəsi.*

*II qrup:*

*əmanətçinin doğum tarixi;*

*şəxsiyyəti təsdiq edən sənədin seriyası;*

*şəxsiyyəti təsdiq edən sənədin verilmə tarixi;*

*şəxsiyyəti təsdiq edən sənədi verən orqanın adı.*

~~Təlimatın 2.1-ci bəndində göstərilmiş əmanətçi haqqında məlumatlar yoxlanılan göstəricilərin əhəmiyyət dərəcəsinə görə 2 qrupa bölünür:~~

~~I qrup:~~

~~soyadı;~~

~~şəxsiyyəti təsdiq edən sənədin növü.~~

~~II qrup:~~

~~adı;~~

~~atasının adı;~~

~~şəxsiyyəti təsdiq edən sənədin seriyası;~~

~~şəxsiyyəti təsdiq edən sənədin nömrəsi;~~

~~şəxsiyyəti təsdiq edən sənədin verilmə tarixi;~~

~~şəxsiyyəti təsdiq edən sənədi verən orqanın adı .~~

**4.1.2.** Əmanətçinin eyniləşdirilməsinin nəticəsi yoxlanılan göstəricilərdə uyğunsuzluqların (səhvlərin) sayından və əhəmiyyətlilik dərəcəsindən asılıdır. Göstəricilərin yoxlanılması şəxsiyyəti təsdiq edən sənəddəki məlumatlarla reyestrdəki məlumatların tutuşdurulması yolu ilə həyata keçirilir. *Eyniləşdirmənin nəticəsi I qrupa daxil olan göstəricilərin hər zaman reyestr məlumatları ilə uyğunluğu və ya müstəsna hallarda qismən uyğunluğu halında (şəxsiyyəti təsdiq edən sənəd şəxsiyyət vəsiqəsi olduğu hal istisna olmaqla) məqbul hesab edilir.*

Adı və atasının adı kimi göstəricilərin yoxlanılmasının nəticəsi onların yazılışında iki işarədən artıq uyğunsuzluq olmadıqda və oxşar adlar olduqda (qismən uyğunluq) məqbul hesab edilir. Məsələn: Lamiə-Lamiyə, Ramil-Ramin, Nağdı-Nəğdi, Nargiz-Nərgiz, Sarvan-Sərvan, Mikail-Mikayıl. Soyadın yoxlanması zamanı oxşar soyadlarda bir işarənin uyğunsuzluğu olduqda eyniləşdirmə (qismən uyğunluq) məqbul hesab edilir. Məsələn:

Yolçuyev-Yolçiyev, Quluyev-Quliyev, Tanrıverdiyev-Tarıverdiyev, Nağdəliyev-Nağdaliyev.

Digər göstəricilərdən hər birinin yoxlanma nəticəsi yalnız bütün işarələrin yazılışda tam uyğunluğu zamanı məqbul hesab edilir.

Bütün göstəricilərin yoxlanmasında əmanətçinin eyniləşdirilmə nəticəsinin məqbul hesab edilməsi üçün mümkün variantlar *Təlimata 2 və 3 nömrəli əlavələrdə* göstərilmişdir.

Uyğunsuzluqlar (səhvlər) aşkar edildiyi zaman Fondun (agent bankın) səlahiyyətli işçisi kompensasiyanın ödənilməsi və ya ödənilməməsi üçün əsas sayılan əmanətçinin eyniləşdirilməsinin nəticəsini Təlimata 1 nömrəli əlavədə göstərilən formaya uyğun olaraq tərtib edir.

**4.1.3.** Aşağıdakılar əmanətçinin eyniləşdirilmə nəticəsinə təsir etmir:

- soyadı, adı, ata adının, eləcə də şəxsiyyəti təsdiq edən sənədin rekvizitlərinin yazılışında «i» və «ı», «ö» və «o», «ü» və «u», «ğ» və «g» hərflərinin uyğunsuzluğu;

- soyadı, adı, ata adında qoşa hərflərdən birinin buraxılması, "b" və "p", "v" və "f", "d" və "t" kimi oxşar səslənən hərflərin yazılışda səhv göstərilməsi;

- mürəkkəb(ikili) adların, soyadların və milli adətlərə uyğun adların yazılış üsulu (məsələn, Əhməd oğlu, Əhməd-Oğlu, Əhməd-oğlu, Mir Qasım, Mirqasım, Əli Yusif, Əliyusif, Əbdül Əhəd, Əbdül-Əhəd, Əbdüləhəd). Belə hallarda baş hərf və kiçik hərflərdən istifadə edilə bilər, defis göstərilə və ya göstərilməyə bilər, iki müxtəlif ad bitişik və ya ayrı yazıla bilər;

- bəzi soyadların sonluqlarında defisin buraxılması. Məsələn: Şərif-zadə - Şərifzadə.

- şəxsiyyəti təsdiq edən sənədin rekvizitlərində qəbul edilmiş ixtisarların istifadəsi (məsələn, "23.02.06" və ya "23.02.2006" və ya "23 fevral 2006", "polis idarəsi" və ya "Pİ", "şəhər" və ya "şəh." və ya "ş.", "rayon" və ya "r-nu" və s.), eləcə də sənədin seriyasının göstərilməsində boşluqların və defislərin olması və ya onların buraxılması (məsələn, 35 01, 3501, 35-01, I-MH, IMH, I MH);

- eyniləşdirilən şəxsdə ata adının olmaması (qanundan və ya milli adətdən irəli gəldiyi hallarda).

**4.2.** *Reyestrə daxil edilən məlumatlar və kompensasiya üçün müraciət etmiş şəxslərin sənədlərindəki məlumatlar uyğunsuzluqlar (səhvlər) aşkar edildikdə, təqdim edilən sənədlərin surətləri, əmanətçinin Təlimata 1 nömrəli əlavədə göstərilən formada*

*tərtib olunan eyniləşdirmə nəticəsi ilə birlikdə Fondda (agent bankda) saxlanılır.*~~Reyestrə daxil edilən məlumatlarda və kompensasiya üçün müraciət etmiş şəxslərin sənədlərində uyğunsuzluqlar (səhvlər) aşkar edildikdə, təqdim edilən sənədlərin Fondun (agent bankın) səlahiyyətli işçisi tərəfindən təsdiq edilmiş surətləri, əmanətçinin Təlimata 1 nömrəli əlavədə göstərilən formada tərtib olunan eyniləşdirilmə nəticəsi Fondda (agent bankda) saxlanılır.~~

## 5. Mübahisələrin həlli

**5.1.** Əmanətçinin eyniləşdirilməsinin nəticəsi qeyri məqbul olarsa, bu zaman kompensasiyanın ödənilməsi üçün müraciət edən şəxsə onun tələblərinin əsaslı olmasını təsdiq edən əlavə sənədlərin təqdim olunması təklif olunur.

**5.2.** Agent bank yuxarıda göstərilən sənədləri araşdırılması üçün ən geci sonrakı gün Fonda göndərir. Fond öz növbəsində sənədləri aldıqdan sonra ən geci sonrakı gün araşdırılması üçün banka göndərir. Sənədləri aldıqdan sonra bank 10 (on) gün ərzində araşdırmanın nəticələri və lazım olan təqdirdə reyestrə edilən dəyişikliklərlə bağlı Fonda məlumat verməlidir.

## 6. Yekun müddəalar

Bu Təlimat Fondun Himayəçilik Şurası tərəfindən təsdiq edildiyi gündən qüvvəyə minir.

"Kompensasiya almaq üçün müraciət etmiş əmanətçilərin və digər şəxslərin eyniləşdirilməsinə dair" Təlimata
**1 nömrəli əlavə**

**Əmanətçinin eyniləşdirilməsinin ~~nəticələri~~ nəticəsi**

Bank________________________ *(bankın adı)*
Əmanətçi ___________(*SAA,reyestr nömrəsi*)
Kompensasiyanın ödənilməsi üçün müraciət etmiş digər şəxslər
____________________________________________________________________

____________________________________________________________________
*(SAA, əmanətçiyə münasibəti: nümayəndə, vərəsə və digər)*

Eyniləşdirilmə tarixi: _______________________

| Yoxlanılmış göstəricilər | Göstəricilərin yoxlanılmasının nəticələri (Qismən uyğundur/Uyğundur/Uyğun deyil) |
|---|---|
| Sənədin növü | |
| Soyadı | |
| Adı | |
| Atasının adı | |
| *Doğum tarixi* | |
| *Sənədin PİN kodu* | |
| Sənədin nömrəsi | |
| Seriya nömrəsi | |
| Sənədin verilmə tarixi | |
| Şəxsiyyəti təsdiq edən sənədi vermiş orqanın adı | |

Nəticə: ~~əmanətçinin eyniləşdirilməsinin nəticəsi~~________________________________
*(məqbul / qeyri-məqbul)*

Səlahiyyətli şəxs ____________________ /_______SAA________/

Ş.Y.

~~"Kompensasiya almaq üçün müraciət etmiş əmanətçilərin və digər şəxslərin eyniləşdirilməsinə dair" Təlimata~~
~~**2 nömrəli əlavə**~~

### ~~Əmanətçinin eyniləşdirilməsinin nəticəsinin məqbul hesab edilməsi üçün mümkün variantlar~~

| ~~I və II qrup göstəricilərin yoxlanılma nəticələri~~ | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| ~~№~~ | ~~I qrup~~ | | ~~II qrup~~ | | | | | |
| | ~~Şəxsiyyətini təsdiq edən sənədin növü~~ | ~~Soyadı~~ | ~~Adı~~ | ~~Atasının adı (qanun və ya milli adətlərdən başqa hal irəli gəlmirsə)~~ | ~~Şəxsiyyəti təsdiq edən sənədin seriya nömrəsi~~ | ~~Şəxsiyyəti təsdiq edən sənədin nömrəsi~~ | ~~Şəxsiyyəti təsdiq edən sənədin verilmə tarixi~~ | ~~Şəxsiyyəti təsdiq edən sənədi vermiş dövlət orqanının adı~~ |
| ~~1~~ | ~~Uyğundur~~ | ~~Qismən uyğundur~~ | ~~Qismən uyğundur~~ | ~~Uyğundur~~ | ~~Uyğundur~~ | ~~Uyğundur~~ | ~~Uyğundur~~ | ~~Uyğundur~~ |
| ~~2~~ | ~~Uyğundur~~ | ~~Uyğundur~~ | ~~Qismən uyğundur~~ | ~~Uyğundur~~ | ~~Uyğundur~~ | ~~Uyğundur~~ | ~~Uyğun deyil~~ | ~~Uyğundur~~ |
| ~~3~~ | ~~Uyğundur~~ | ~~Uyğundur~~ | ~~Qismən uyğundur~~ | ~~Uyğundur~~ | ~~Uyğundur~~ | ~~Uyğundur~~ | ~~Uyğundur~~ | ~~Uyğun deyil~~ |
| ~~4~~ | ~~Uyğundur~~ | ~~Uyğundur~~ | ~~Uyğundur~~ | ~~Qismən uyğundur~~ | ~~Uyğundur~~ | ~~Uyğundur~~ | ~~Uyğundur~~ | ~~Uyğundur~~ |
| ~~5~~ | ~~Uyğundur~~ | ~~Uyğundur~~ | ~~Uyğundur~~ | ~~Qismən uyğundur~~ | ~~Uyğundur~~ | ~~Uyğundur~~ | ~~Uyğun deyil~~ | ~~Uyğundur~~ |
| ~~6~~ | ~~Uyğundur~~ | ~~Uyğundur~~ | ~~Uyğundur~~ | ~~Qismən uyğundur~~ | ~~Uyğundur~~ | ~~Uyğundur~~ | ~~Uyğundur~~ | ~~Uyğun deyil~~ |
| ~~7~~ | ~~Uyğundur~~ | ~~Uyğundur~~ | ~~Uyğundur~~ | ~~Uyğundur~~ | ~~Uyğun deyil~~ | ~~Uyğundur~~ | ~~Uyğundur~~ | ~~Uyğundur~~ |
| ~~8~~ | ~~Uyğundur~~ | ~~Uyğundur~~ | ~~Uyğundur~~ | ~~Uyğundur~~ | ~~Uyğun deyil~~ | ~~Uyğundur~~ | ~~Uyğun deyil~~ | ~~Uyğundur~~ |
| ~~9~~ | ~~Uyğundur~~ | ~~Uyğundur~~ | ~~Uyğundur~~ | ~~Uyğundur~~ | ~~Uyğun deyil~~ | ~~Uyğundur~~ | ~~Uyğundur~~ | ~~Uyğun deyil~~ |
| ~~10~~ | ~~Uyğundur~~ | ~~Uyğundur~~ | ~~Uyğundur~~ | ~~Uyğundur~~ | ~~Uyğundur~~ | ~~Uyğun deyil~~ | ~~Uyğundur~~ | ~~Uyğundur~~ |
| ~~11~~ | ~~Uyğundur~~ | ~~Uyğundur~~ | ~~Uyğundur~~ | ~~Uyğundur~~ | ~~Uyğundur~~ | ~~Uyğun deyil~~ | ~~Uyğun deyil~~ | ~~Uyğundur~~ |
| ~~12~~ | ~~Uyğundur~~ | ~~Uyğundur~~ | ~~Uyğundur~~ | ~~Uyğundur~~ | ~~Uyğundur~~ | ~~Uyğun deyil~~ | ~~Uyğundur~~ | ~~Uyğun deyil~~ |
| ~~13~~ | ~~Uyğundur~~ | ~~Uyğundur~~ | ~~Uyğundur~~ | ~~Uyğundur~~ | ~~Uyğundur~~ | ~~Uyğundur~~ | ~~Uyğun deyil~~ | ~~Uyğun deyil~~ |
| ~~14~~ | ~~Uyğundur~~ | ~~Uyğundur~~ | ~~Uyğundur~~ | ~~Uyğundur~~ | ~~Uyğundur~~ | ~~Uyğundur~~ | ~~Uyğundur~~ | ~~Uyğun deyil~~ |
| ~~15~~ | ~~Uyğundur~~ | ~~Uyğundur~~ | ~~Uyğundur~~ | ~~Uyğundur~~ | ~~Uyğundur~~ | ~~Uyğundur~~ | ~~Uyğun deyil~~ | ~~Uyğundur~~ |

*Kompensasiya almaq üçün müraciət etmiş əmanətçilərin və digər şəxslərin eyniləşdirilməsinə dair" Təlimata*
***2 nömrəli əlavə***

**Əmanətçinin eyniləşdirilməsinin nəticəsinin məqbul hesab edilməsi üçün mümkün variantlar**

| I və II qrup göstəricilərin yoxlanılma nəticələri | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| № | I qrup | | | | | II qrup | | | |
| | Şəxsiyyətini təsdiq edən sənədin növü | Soyadı | Adı | Atasının adı (qanun və ya milli adətlərdən başqa hal irəli gəlmirsə) | Şəxsiyyəti təsdiq edən sənədin nömrəsi | Doğum tarixi | Şəxsiyyəti təsdiq edən sənədin seriya nömrəsi | Şəxsiyyəti təsdiq edən sənədin verilmə tarixi | Şəxsiyyəti təsdiq edən sənədi vermiş dövlət orqanının adı |
| 1 | Uyğundur | Qismən uyğundur | Qismən uyğundur | Uyğundur | Uyğundur | Uyğundur | Uyğundur | Uyğundur | Uyğundur |
| 2 | Uyğundur | Uyğundur | Qismən uyğundur | Uyğundur | Uyğundur | Uyğundur | Uyğundur | Uyğun deyil | Uyğundur |
| 3 | Uyğundur | Uyğundur | Qismən uyğundur | Uyğundur | Uyğundur | Uyğun deyil | Uyğundur | Uyğundur | Uyğun deyil |
| 4 | Uyğundur | Uyğundur | Uyğundur | Qismən uyğundur | Uyğundur | Uyğun deyil | Uyğundur | Uyğundur | Uyğundur |
| 5 | Uyğundur | Uyğundur | Uyğundur | Qismən uyğundur | Uyğundur | Uyğundur | Uyğundur | Uyğun deyil | Uyğundur |
| 6 | Uyğundur | Uyğundur | Uyğundur | Qismən uyğundur | Uyğundur | Uyğun deyil | Uyğundur | Uyğundur | Uyğun deyil |
| 7 | Uyğundur | Uyğundur | Uyğundur | Uyğundur | Uyğundur | Uyğun deyil | Uyğun deyil | Uyğundur | Uyğundur |
| 8 | Uyğundur | Uyğundur | Uyğundur | Uyğundur | Uyğundur | Uyğundur | Uyğun deyil | Uyğun deyil | Uyğundur |
| 9 | Uyğundur | Uyğundur | Uyğundur | Uyğundur | Uyğundur | Uyğundur | Uyğun deyil | Uyğundur | Uyğun deyil |
| 10 | Uyğundur | Uyğundur | Uyğundur | Uyğundur | Qismən uyğundur | Uyğundur | Uyğundur | Uyğundur | Uyğundur |
| 11 | Uyğundur | Uyğundur | Uyğundur | Uyğundur | Uyğundur | Uyğundur | Uyğundur | Uyğun deyil | Uyğun deyil |
| 12 | Uyğundur | Uyğundur | Uyğundur | Uyğundur | Uyğundur | Uyğun deyil | Uyğundur | Uyğundur | Uyğun deyil |
| 13 | Uyğundur | Uyğundur | Uyğundur | Uyğundur | Uyğundur | Uyğun deyil | Uyğundur | Uyğundur | Uyğundur |

*Kompensasiya almaq üçün müraciət etmiş əmanətçilərin və digər şəxslərin eyniləşdirilməsinə dair" Təlimata*
***3 nömrəli əlavə***

***Şəxsiyyəti təsdiq edən sənəd şəxsiyyət vəsiqəsi olduqda əmanətçinin eyniləşdirilməsinin nəticəsinin məqbul hesab edilməsi üçün mümkün variantlar***

| **I və II qrup göstəricilərin yoxlanılma nəticələri** | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| **№** | ***I qrup*** | | | | | ***II qrup*** | | | |
| | ***Şəxsiyyətini təsdiq edən sənədin PİN kodu*** | ***Soyadı*** | ***Adı*** | ***Atasının adı (qanun və ya milli adətlərdən başqa hal irəli gəlmirsə)*** | ***Şəxsiyyəti təsdiq edən sənədin nömrəsi*** | ***Doğum tarixi*** | ***Şəxsiyyəti təsdiq edən sənədin seriya nömrəsi*** | ***Şəxsiyyəti təsdiq edən sənədin verilmə tarixi*** | ***Şəxsiyyəti təsdiq edən sənədi vermiş dövlət orqanının adı*** |
| **1** | *Uyğundur* | *Uyğun deyil* | *Uyğun deyil* | *Uyğundur* | *Uyğun deyil* | *Uyğundur* | *Uyğundur* | *Uyğun deyil* | *Uyğun deyil* |
| **2** | *Uyğundur* | *Uyğundur* | *Qismən uyğundur* | *Uyğun deyil* | *Uyğun deyil* | *Uyğundur* | *Uyğundur* | *Uyğun deyil* | *Uyğun deyil* |
| **3** | *Uyğundur* | *Uyğundur* | *Qismən uyğundur* | *Qismən uyğundur* | *Uyğundur* | *Uyğun deyil* | *Uyğundur* | *Uyğundur* | *Uyğun deyil* |
| **4** | *Uyğundur* | *Uyğundur* | *Uyğundur* | *Qismən uyğundur* | *Uyğundur* | *Uyğun deyil* | *Uyğundur* | *Uyğun deyil* | *Uyğun deyil* |
| **5** | *Uyğundur* | *Uyğundur* | *Uyğundur* | *Uyğundur* | *Uyğundur* | *Uyğun deyil* | *Uyğun deyil* | *Uyğundur* | *Uyğundur* |
| **6** | *Uyğundur* | *Uyğundur* | *Uyğundur* | *Uyğundur* | *Uyğundur* | *Uyğundur* | *Uyğun deyil* | *Uyğundur* | *Uyğun deyil* |
| **7** | *Uyğundur* | *Uyğundur* | *Uyğundur* | *Uyğundur* | *Qismən uyğundur* | *Uyğundur* | *Uyğundur* | *Uyğundur* | *Uyğundur* |